

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 29 avqust 2026-cı il №59 (3061) https://mod.gov.az Qiyməti 30 qəpik


## Hibrid əməliyyatlar - müharibələrin görünməyən təhlükəsi

Müharibə anlayışı bəşər yarandığı dövrdən günümüzə qədər dəyişən cəmiyyətlərin, texnologiyanın və dünya mühitinin yeni dövrə qədəm qoyması ilə müxtəlif məzmunlar qazanıb. İnsanların bəşəriyyətə qədəm qoyduğu dövrdən günümüzə qədər müxtəlif sivilizasiyalarda baş verən müharibələr müxtəlif səbəblərdən yaranıb. İlk müharibələrin səbəbləri ilə bugünkü müharibələrin mahiyyəti bir-birinə bənzəsə də, aparılma üsulları və miqyasında ciddi fərqlər var. Belə ki, ilk insan qrupları arasında baş verən yaxın toqquşmalar bu gün geniş miqyasda artıq kilometrlərlə məsafəyə daşınıb. Tayfalar, qəbilələr arasında əmlak və ərzaq bölgüsündə bərabərsizliyin, cəmiyyətdə müxtəlif təbəqələşmənin yaranması, yeni ərazilərin və sərvətlərin ələ keçirilməsi və yaxud da güc mübadiləsinin nümayiş olunması məqsədi ilə müxtəlif mübarizələr aparılıb ki, bu mübarizələrin bir qismi günümüzdə də öz aktuallığını qoruyub saxlayır. Lakin bir məsələ var ki, qədim dövrdəki savaşlar zamanı kəmiyyət və təkamül fərqi üstünlük sayılırdısa, indi üstünlük məfhumu öz sərhədlərini genişləndirib.

Zaman keçdikcə oxatanlar arabaletlərlə, tüfənglərlə, katapultlar, artilleriya vasitələri ilə əvəz olundu, aparılan mübarizələr raket və aviasiya vasitələri ilə zənginləşdi. Günümüzdə texniki tərəqqinin yüksəlməsi, innovativ yeniliklərin artması nəticəsində müharibələrdə birbaşa fiziki təsir formasından əlavə kiberhücum, iqtisadi faktor, siyasi manipulyasiya, sosial təsir, psixoloji təhdid və digər strateji məqsədlərdən də istifadə olunur. Belə olan təqdirdə isə müasir dövrün təhlükəsizlik nəzəriyyəsində “hibrid müharibələr” və ya “hibrid təhdidlər” anlayışları ön plana çıxır. Bir sözlə, qədim dövrlərin münaqişələrini birbaşa fiziki təsirsiz təsəvvür etmək mümkün deyildisə, müasir dövrdəki savaşları da hibrid təsirsiz düşünmək olmur. Bu məqalədə hibrid müharibələrin mahiyyəti, tarixi və müasir dövrdəki təcrübələr nəzərə alınmaqla üsul və vasitələrindən danışılacaq.



(Ardı 3-cü səhifədə)

## Naxçıvanda şəhid və qazi övladları üçün sosial təlim proqramı təşkil olunacaq

Naxçıvan Muxtar Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Naxçıvan Poçt və Telekommunikasiya Mərkəzi" MMC tərəfindən şəhid və qazi ailələrinin övladları üçün “Rəqəmsal bacarıqlar” üzrə sosial təlim proqramı həyata keçiriləcək.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-ın bölgə müxbirinə bildirilib ki, Zəfər Gününə həsr olunan layihənin əsas məqsədi şəhid və qazi ailələrinin övladlarının müasir rəqəmsal bacarıqlarının inkişaf etdirilməsi, onların gələcək təhsil və peşə fəaliyyətinə hazırlığının gücləndirilməsidir.

44 gün davam edəcək təlim proqramı çərçivəsində iştirakçılara kompüterdən istifadə, “Windows” əməliyyat sistemi, “Microsoft Word”, “Microsoft PowerPoint” və “Microsoft Excel” proqramları, internet resurslarından istifadə, bulud texnologiyaları, süni intellektin əsasları və kibertəhlükəsizlik istiqamətləri üzrə praktiki bilik və bacarıqlar öyrədiləcək.

Təlimlər zamanı nəzəri biliklərlə yanaşı, praktiki məşğələlərə xüsusi üstünlük veriləcək.

Layihədə şəhid və qazi ailələrinin övladları iştirak edə biləcəklər. Təlim proqramı iştirakçılar üçün tamamilə ödənişsiz təşkil olunacaq.

Təlimlər NPTM MMC-nin Təlim və Tədris sektorunun Naxçıvan şəhərində, Şərur, Culfa və Ordubad rayonlarında yerləşən inzibati binalarında keçiriləcək.

Sənəd qəbulu avqustun 27-dən sentyabrın 27-dək həyata keçiriləcək. Təlim proqramını uğurla başa vuran iştirakçılara sertifikatlar təqdim ediləcək.

“Rəqəmsal bacarıqlar” sosial təlim proqramı şəhid və qazi ailələrinin övladlarının rəqəmsal imkanlarının genişləndirilməsinə, onların müasir texnologiyalardan daha səmərəli istifadə etməsinə və gələcək inkişaflarına dəstək məqsədi daşıyır.

## Qarabağ - Zəfərimizin və qürurumuzun ünvanı

Qarabağ Azərbaycan xalqının çoxəsrlik tarixinin, zəngin mədəniyyətinin və milli-mənəvi dəyərlərinin ayrılmaz parçasıdır. Bu qədim torpaq xalqımızın yaddaşında təkcə gözəl təbiəti, tarixi abidələri və mədəni irsi ilə deyil, həm də Vətən sevgisinin, milli qürurun və azadlıq duyğusunun rəmzi kimi yaşayır. Uzun illər Qarabağ həsrəti ilə yaşayan xalqımız, nəhayət, öz haqqına qovuşdu. Doğma Qarabağımız işğaldan azad edildi. Üçrəngli bayrağımız Qarabağda qürurla dalğalanmaqdadır. Bu da tarixi Zəfərimizin ən möhtəşəm ifadəsidir.

Qarabağın azadlığına gedən yol heç də asan olmadı. Bu yol xalqımızın möhkəm iradəsindən, dövlətimizin gücündən, ordumuzun qüdrətindən və minlərlə Vətən övladının igidliyindən, qəhrəmanlığından keçdi. Tarixi Zəfər bir gündə qazanılmadı. Bu böyük Qələbənin arxasında illərlə aparılan məqsədyönlü dövlət siyasəti, ordu quruculuğu, iqtisadi inkişaf, diplomatik fəaliyyət və xalq-ordu birliyi dayanırdı.

Bu tarixi yolun başlanğıcında Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi dövlətçilik və ordu quruculuğu siyasəti dayanırdı. Bu siyasətin ardıcıl davam etdirilməsi isə Azərbaycanı tarixi Zəfərə apardı.

Azərbaycanın müstəqilliyinin ilk illərində ölkəmiz ağır siyasi, iqtisadi və hərbi böhranla üz-üzə qaldı. Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın bir hissəsi işğal olunmuş, yüz minlərlə soydaşımız doğma yurdlarından didərgin düşmüşdü. Belə mürəkkəb vəziyyətdə Azərbaycanın qarşısında duran ən mühüm vəzifələrdən biri güclü və nizami ordunun formalaşdırılması idi.

1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev ölkənin həyatında yeni mərhələnin başlanğıcını qoydu. İlk növbədə, dövlət idarəçiliyində sabitlik yaradıldı, separatçılıq və daxili qarşıdurma meyilləri qarşısı alındı, nizami ordunun formalaşdırılması istiqamətində mühüm islahatlar həyata keçirildi.

Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti göstərirdi ki, müstəqilliyi qorumağın, ərazilərin silahlı müdafiəsini təmin etməyin əsas şərtlərindən biri ölkədə güclü ordunun yaradılmasıdır.

(Ardı 6-cı səhifədə)

## Didərginlərin qanlı taleyi

İşğala qədər Laçın Azərbaycanda heyvandarlığın yüksək inkişaf etdiyi rayonlardan biri sayılırdı. 1992-ci il mayın 18-dək bu sahə rayonda yaşayan 60 min nəfərin əsas məşğuliyyəti idi. Həmin gün Ermənistan silahlı birləşmələrinin Laçını işğal etməsi nəticəsində sakinlər el-obasından didərgin düşdülər. Laçınlılar Azərbaycanın müxtəlif bölgələrində məcburi köçkün həyatı yaşadılar. Heyvandarlıqla məşğul olan rayon sakinləri bu fəaliyyət növü üçün əlverişli olan Beyləqan, Bərdə, Goranboy və digər ətraf ərazilərdə məskunlaşdılar.

1992-ci ilin avqustun son günlərində Azərbaycanın fərqli bölgələrində məskunlaşan, yaxın qohumluq münasibətləri olan 10 laçınlı ailə - Abdullayev Abdulla Bədəl oğlunun, Hümbətov Vəzir İsmayıl oğlunun, Məhərrəmov Kamil İbrahimxəlil oğlunun, Məhərrəmov Cəmil İbrahimxəlil oğlunun, Mehdiyev Binnət Hümbət oğlunun, Mehdiyev Hümmət Əbülqasım oğlunun, Mehdiyev Məhəmməd Əbülqasım oğlunun, Mehdiyev Rəhbər Məhəmməd oğlunun, Alməmmədov Şəmil Alməmməd oğlunun və Alməmmədov Səxavət Şəmil oğlunun ailələri heyvandarlıq üçün daha əlverişli şərait yaratmaq məqsədilə Goranboyun Ballıqaya kəndində, Gülüstan meşəsi adlanan ərazidə çadırlarda məskunlaşdılar. Laçına dönmək ümidi ilə Ballıqaya yaylağında yurd salan ailələr yağışdan qaçanda doluya düşəcəklərindən xəbərsiz idilər...

Məskunlaşdıqdan iki gün sonra qadınlar su gətirmək üçün bulağa gedirlər. Bulaq başında olanda kiminsə onları izlədiyini hiss edirlər. Geri dönən kimi bu barədə həyat yoldaşlarına məlumat verirlər. Erməni vəhşiliyindən qaçıb Ballıqayaya sığınan sakinlər baş verənlərdən narahatlıq hiss keçirir və ailə başçılarından buradan köçməyi xahiş edirlər. Kişilərin bir qismi başqa rayonlarda yaşayış yeri axtarmaq üçün yola düşürlər. Beləcə bir gün ötür...

(Ardı 4-cü səhifədə)

## BDU-nun tələbəsi adını qazanan şəhid övladları




Yeni tədris ili üzrə Bakı Dövlət Universitetinə (BDU) qəbul olaraq tələbə adını qazananlar arasında Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin övladları da var.

BDU-dan AZƏRTAC-a bildirilib ki, şəhid mayor Sənan Zamanovun övladı Fidan Zamanova Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin dövlət və ictimai münasibətlər ixtisasına qəbul olub. Şəhid baş gizir İlkin Süleymanovun övladı Nuray Mahirzadə Filologiya fakültəsində filologiya (Azərbaycan dili və ədəbiyyatı) ixtisası üzrə əyani təhsil alacaq. Şəhid baş leytenant Mixail Həmidovun övladı Mədinə Həmidli Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin beynəlxalq münasibətlər ixtisasına qəbul olub. Şəhid polkovnik-leytenant Vidadi Xəlilovun övladı Zəhra Xəlilzadə də Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin beynəlxalq münasibətlər ixtisasında əyani təhsil alacaq.

# Bakıda Türkiyənin Zəfər Bayramı və Silahlı Qüvvələr Gününün 104-cü ildönümü münasibətilə tədbir keçirilib



***Avqustun 28-də Müdafiə Nazirliyinin rəhbərliyi 30 Avqust – Zəfər Bayramı və Türkiyə Silahlı Qüvvələri Günü münasibətilə Türkiyənin Azərbaycandakı səfirliyində təşkil olunan rəsmi qəbulda iştirak edib.***

Tədbir Azərbaycanın və Türkiyənin dövlət himnlərinin səsləndirilməsi ilə başlayıb.

Müdafiə Nazirliyi xəbər verir ki, sonra Türkiyənin Azərbaycandakı səfiri Birol Akgün Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın 30 Avqust – Zəfər Bayramı münasibətilə təbrik məktubunu oxuyub.

B.Akgün çıxışında türk xalqı və Türkiyə Silahlı Qüvvələrinin Mustafa Kamal Atatürkün rəhbərliyi ilə 1922-ci il avqustun 30-da tarixi qələbə qazanaraq Türkiyənin müstəqilliyi uğrunda apardığı mübarizəni uğurla başa çatdırdığını bildirib.

Səfir dövlət başçılarımızın uğurlu siyasi fəaliyyətləri nəticəsində regionda sülhün təmin olunmasına yönəlmiş son addımları yüksək qiymətləndirib, Cənubi Qafqazda davamlı sülh və rifahın təmin olunması üçün tarixi imkan yarandığını qeyd edib.

Türkiyənin Azərbaycanın bu istiqamətdə həyata keçirdiyi bütün təşəbbüsləri dəstəkləməyə davam edəcəyini və sülhün, sabitliyin təmin olunması üçün fəal mövqe göstərəcəyini ifadə edib.

B.Akgün çıxışında ölkəmizin Vətən müharibəsində qazandığı qələbənin Ali Baş Komandanın rəhbərliyi, Azərbaycan Ordusunun qəhrəmanlığı və xalqın birliyi nəticəsində əldə edildiyini qeyd edərək, bu qələbənin qazanılmasında əməyi olanların daim hörmət və ehtiramla yad edilməsinin vacibliyini bildirib.

Daha sonra çıxış edən müdafiə naziri general-polkovnik Zakir Həsənov Zəfər bayramı və Türkiyə Silahlı Qüvvələr Gününün 104-cü ildönümü münasibətilə qardaş Türkiyə Respublikasını təbrik edib, əmin-amanlıq, firavanlıq və rifah arzulayıb.

General-polkovnik Z.Həsənov Türkiyənin Qurtuluş savaşında əldə etdiyi Zəfərin qardaş ölkənin tarixində ən şərəfli səhifələrdən biri olduğunu vurğulayıb.

O bildirib ki, Türkiyə və Azərbaycan arasında qardaşlıq əlaqələri Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin bizə miras qoyduğu "Bir millət, iki dövlət" və Azərbaycanı çox sevən Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" prinsipləri ilə hər ötən gün daha da möhkəmlənir.



Nazir Azərbaycan və Türkiyə dövlət başçılarının arasında olan səmimi münasibətlərin sayəsində bu əlaqələrin daha da inkişaf etdiyini, məhz elə bu prinsipləri rəhbər tutaraq, ölkələrimizin həmişə olduğu kimi, həlledici anlarda da bir-birinin yanında olduğuna diqqət çəkib.

General-polkovnik Z.Həsənov regional sülh və təhlükəsizliyin mühüm sütunlarından olan Azərbaycan–Türkiyə ikitərəfli əməkdaşlığının dövlət başçılarımız tərəfindən imzalanan Şuşa Bəyannaməsi ilə müttəfiqlik səviyyəsinə yüksəldiyini ifadə edib.

Müdafiə naziri hazırda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun Türkiyə Silahlı Qüvvələrinin modelinə uyğun qurulması istiqamətində hərbi, hərbi təhsil və hərbi-texniki sahələrdə islahatlar aparıldığından danışıb.

Keçirilən islahatlar çərçivəsində döyüş hazırlığı sahəsində fəaliyyətlərin dinamikasının gündən-günə artırıldığını, hər il həm Azərbaycanda, həm də Türkiyədə ordularımızın peşəkarlığının yüksəldilməsi, qarşılıqlı uzlaşmanın əldə edilməsi, eləcə də dostluq və qardaşlıq əlaqələrinin daha da möhkəmlənməsi baxımından mühüm əhəmiyyət kəsb edən, müxtəlif qoşun növlərinin iştirakı ilə birgə hərbi təlimlərin keçirildiyini bildirib.

Rəsmi qəbulda dövlət və hökumət nümayəndələri, xarici ölkələrin Azərbaycandakı səfirləri, hərbi attaşelər, beynəlxalq təşkilatların təmsilçiləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

# İngilis və İtalyan dili kurslarının açılış mərasimi keçirilib



Milli Müdafiə Universitetinin (MMU) tabeliyində fəaliyyət göstərən Hərbi İdarəetmə İnstitutunun (HİI) Xarici Dil Mərkəzində Amerika Birləşmiş Ştatlarının Müdafiə Dil İnstitutu (DLI) təlimatçılarının iştirakı ilə təşkil olunan ingilis dili kursunun açılış mərasimi keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, tədbirdə institutun rəhbərliyi, Xarici Dil Mərkəzinin professor-müəllim heyəti və kursa cəlb olunan hərbi qulluqçular iştirak ediblər. Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edənlər müasir dövrdə xarici dil biliklərinin hərbi qulluqçuların peşəkar hazırlığının mühüm istiqamətlərindən biri olduğunu bildirib, kurs iştirakçılarına uğurlar arzulayıblar.

Bildirilib ki, 4 ay davam edəcək kurs müddətində ABŞ-nin Müdafiə Dil İnstitutunun təlimatçıları tərəfindən iştirakçıların xarici dil üzrə bilik və bacarıqlarının inkişaf etdirilməsi, onların dinləmə, oxu, yazı və danışıq qabiliyyətlərinin təkmilləşdirilməsi istiqamətində müvafiq məşğələlər keçiriləcək. Sonra kursun təşkili və tədris prosesi ilə bağlı iştirakçılara ətraflı məlumat verilib.

Tədbirin yekununda xatirə şəkilləri çəkdirilib.

* * *



Milli Müdafiə Universitetinin (MMU) tabeliyində fəaliyyət göstərən Hərbi İdarəetmə İnstitutunun (HİI) Xarici Dil Mərkəzində İtalyan dili kursunun açılış mərasimi keçirilib.

Tədbirdə institutun rəhbərliyi, kursun dinləyiciləri və İtaliya Respublikasının Azərbaycan Respublikasındakı hərbi attaşesi, 1-ci dərəcəli kapitan Gianfranco Vizzini iştirak edib.

Tədbirdə çıxış edən Hərbi İdarəetmə İnstitutunun rektorunun elm və tədris üzrə müavini, 1-ci dərəcəli kapitan Əsəd Rüstəmov İtalyan dili kursunun hərbi qulluqçuların xarici dil biliklərinin və peşəkar hazırlığının inkişaf etdirilməsi baxımından əhəmiyyətindən danışıb.

İtaliya Respublikasının ölkəmizdəki hərbi attaşesi 1-ci dərəcəli kapitan Gianfranco Vizzini öz növbəsində Azərbaycan ilə İtaliya arasında əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən hərbi əməkdaşlıq sahəsində inkişaf etdiyini vurğulayıb.

Belə kursların iki ölkənin müvafiq qurumları arasında qarşılıqlı əlaqələrin və təcrübə mübadiləsinin daha da genişləndirilməsinə mühüm töhfə verdiyi qeyd olunub.

Daha sonra İtaliyanın hərbi attaşesi Gianfranco Vizzini institutun Şərəf Kitabına ürək sözlərini yazıb.

Tədbirin sonunda xatirə fotosu çəkdirilib.








# “Azərbaycan-Pakistan 12-ci İşçi Qrupu Səviyyəli Görüşü” keçirilib



Bakıda Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Pakistan İslam Respublikası Müdafiə Qüvvələri Qərargahı arasında "Azərbaycan-Pakistan 12-ci İşçi Qrupu Səviyyəli Görüşü" keçirilib.

Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində keçirilən görüşdə hər iki ölkənin müdafiə qurumları arasında əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Müdafiə Nazirliyi xəbər verir ki, görüşün protokolu imzalandıqdan sonra qarşılıqlı hədiyyələr təqdim olunub.

Tədbirin sonunda nümayəndə heyətlərinin iştirakı ilə xatirə fotosu çəkdirilib.



# Hibrid əməliyyatlar - müharibələrin görünməyən təhlükəsi

(Əvvəli 1-ci səhifədə)

Əvvəlcə “hibrid müharibə nədir?” sualına cavab tapaq. Bu mövzudan danışarkən, mütləq onu qeyd etmək yerinə düşər ki, bu anlayış beynəlxalq hüquq sənədlərində (məsələn, Cenevrə



konvensiyalarında) birbaşa "hüquqi termin" kimi tam təsbit olunmasa da, hərbi-siyasi sənədlərdə, milli təhlükəsizlik strategiyalarında və ittifaqların rəsmi bəyannamələrində əsas konseptual terminlərdən biridir. Hibrid müharibə hərbi və qeyri-hərbi, açıq və gizli vasitələrin vahid strateji missiya naminə əlaqələndirilmiş şəkildə tətbiq edildiyi qarşıdurma formasıdır. Termin olaraq müasir olsa da, məntiqi hələ çoxdankı dövrə təsadüf edir. Nəzərə alsaq ki, tarixin müxtəlif mərhələlərində düşmən və yaxud qeyri-dost qüvvələrə qarşı casusluq, təxribat, təzyiq, blokada və digər üsullardan istifadə olunub. Hibrid müharibənin əsas xüsusiyyəti onun “sülh və müharibə” arasındakı sərhədini birləşdirməsidir. Bu savaşda bir tərəf digər tərəfə birbaşa təmassız təsir göstərir. Belə olan təqdirdə, qarşı tərəfin cavab tədbirini görməsini və yaxud hərəkəti cavablandırmasını çətinləşdirən qeyri-müəyyənlik yaranır. Hibrid müharibədə əsas məqsəd hər zaman ərazi işğalı deyil, dövlətin əsas sütunlarını zəiflətmək, sosial, iqtisadi, siyasi sabitliyi sarsıtmaqla, cəmiyyətdə parçalanma yaratmaq və bununla da qarşı tərəfi öz maraqlarına uyğun qərarlar qəbul etməyə məcbur etməkdir. Bununla da hibrid müharibədə mühüm olan ordunun gücü deyil, dövlətin dayanıqlılığı, cəmiyyətin birliyi hesab olunur.

Birinci və İkinci Dünya müharibələri və ondan sonrakı Soyuq müharibə dövründə hibrid təhdidlər daha sistemli xarakter qazandı. Belə ki, əhalinin və cəmiyyətin mənəvi-psixoloji hazırlığına təsir göstərmək üçün müxtəlif təbliğat kampaniyaları aparılırdı. Hibrid müharibənin ötən əsrin ortalarında daha ciddi hal alması birbaşa nə(lər) ilə bağlı idi? Ekspertlərin fikirlərinə əsasən, hər müharibədə tərəflər arasında maraqlı olan qüvvələr olur ki, bu da hibrid münaqişəni şərtləndirən amillərdən biridir. Böyük qüvvələr bəzən münaqişələrə birbaşa girməkdənsə, “hibrid təhdidlərin” müxtəlif elementlərindən istifadə etməyə başlayırlar. Günümüzdə böyük güc olan ABŞ, Çin, Rusiya və s. dövlətlər dünyadakı münaqişə ocaqlarında tərəflərin birini birbaşa və ya bilavasitə üsullarla dəstəkləyir və bu istiqamətdə öz işlərini görür. Həmçinin BMT Nizamnaməsinin 2-ci maddəsində qeyd olunan birbaşa güc və qüvvədən istifadə etməmək hibrid münaqişəni bu gün daha aktual hala gətirib çıxarır. Hibrid müharibəsinin özünəxas xüsusiyyətlərindən biri sülh və müharibə arasında konkret sərhədin olmamasıdır. Burada aşkarlıq vəziyyətinin olmaması, “yumşaq təsir” faktını ortaya çıxardığı üçün beynəlxalq normalara uyğun məsuliyyət də çətin sübut olunur. Müdaxilə də faktiki olaraq sübuta yetirilmədiyi üçün beynəlxalq məsuliyyət heç bir halda nəzərdə tutulmur. Bir sözlə, hibrid müharibədə “təcavüzkar” konkret olaraq heç kimə məlum olmur. Versiya və yaxud variantlar olur ki, sübut və ya arqument olmadığı üçün bu da əsassız sayılır.

Hibrid müharibə məfhumu yarandığı dövrdən kəşfiyyat, siyasi və sosial təsir, ideoloji mübarizə, iqtisadi təzyiq və s. istifadə olunan əsas predmetlərdəndir. Qeyd etdiyimiz hibrid müharibənin üsul və vasitələrinə nəzər salaq.

Nəzəriyyədə hibrid təhdidlərin əsas istiqamətlərindən biri informasiya müharibəsidir. İnformasiya mühitinə təsir cəmiyyətin hadisələri qəbuletmə düşüncəsini təsvir edir. Dezinformasiya, saxta (fake) xəbərlər, kontekstdən çıxarılmış və ya dəyişdirilmiş ifadələr, yalançı media hesabları və resursları, botlar və süni intellektlə hazırlanmış deepfake video və ya fotolar da qeyd olunan məqsədlə istifadə oluna bilər. Bu hücumlar da çoxsaylı olur ki, məqsəd insanlarda hansı məlumatın doğru olduğuna ziddiyyət yaratmaqdır.

Digər istiqamətlərdən biri kiberhücumlardır. Günümüzdə kiber məkan hibrid qarşıdurmaların əsas cəbhələrindən biridir. Dövlət qurumlarının, rəsmi məlumat istinadgahlarının sıradan çıxarılması, zəruri informasiyaların oğurlanması, fəaliyyətlərə müdaxilə, məhdudlaşdırma, maliyyə sektoruna hücum və ya müxtəlif casusluq əməliyyatları bu sahədə misal göstərmək olar.

İqtisadi təsir də hibrid təhdidlərdən biridir. Belə ki, enerji resursların, ticarət, logistika, maliyyə və strateji əhəmiyyətli məhsullar hibrid təsir vasitəsinə çevrilə bilən elementlərdir. Enerji təchizatının məhdudlaşdırılması, ticarət qadağalarının qüvvəyə minməsi, investisiyalara mənfi təsir göstərilməsi, mühüm layihələrə təzyiqlərin artırılması məqsədi ilə hibrid təhdidlər meydana gələ bilər ki, bu ssenari də onu deməyə əsas verir ki, iqtisadi güc və ehtiyat davamlılığı mütləq şərtdir.

Siyasi təsir və manipulyasiya əhalidə mövcud problemlərin qabardılması, cəmiyyətin müxtəlif təbəqələri arasında qarşıdurmanın dərinləşdirilməsi strateji məqsədlərə nail olmaq üçün istifadə edilən predmetlərdir.

Kəşfiyyat və casusluq ən qədim tarixə malik olan sahə olaraq, müxtəlif dövrlərdə çox mühüm gizli silah kimi ön plana çıxıb. Bu gün də kəşfiyyat fəaliyyəti öz əhəmiyyətini rəqəmsal imkanların təkmilləşməsi ilə daha da artırıb. Belə ki, kəşfiyyat predmetləri məlumat toplama, təhlil, casusluq təminatlarını özündə birləşdirən məfhum olaraq, tarixin ən innovativ dövrünü yaşayaraq, hibrid müharibənin aparılmasında əsas sütunlardan biri kimi qalmaqdadır.

Texnoloji yeniliklər və PUA-ların istifadəsinin geniş vüsət alması hibrid müharibənin texnoloji üslubunu daha da genişləndirib. Belə ki, günümüzdə klassik hərbi əməliyyatlarda istifadə ilə yanaşı, pilotsuz uçuş aparatları müşahidə, kəşfiyyat, psixoloji təsir və digər məqsədlərlə də istifadə olunur. Günümüzdə PUA-ların tədqiqinin dərinləşməsi, hibrid təhdidlərdə də əsas predmetlərdən biri kimi həlledici rola malikdir.

Hibrid müharibə və ya hibrid təhdid Cənubi Qafqazda öz həssaslığı ilə seçilir. Belə ki, regionda yerləşən ölkələrin geostrateji mövqeyi, enerji infrastrukturu, nəqliyyat dəhlizi, təbii sərvətləri və bu səbəblərdən də böyük dövlətlərin bu əraziyə olan maraqları hibrid təhdidlərə qarşı mübarizədə mühüm təsir vasitələrinin əhəmiyyətini artırır.

Azərbaycan-Ermənistan arasında qarşıdurmanın tarixinin uzun illəri əhatə etdiyi hər kəsə



məlumdur. Lakin bu münaqişə hər zaman döyüş meydanında aparılmayıb. Beynəlxalq informasiya məkanlarında tarixi, siyasi və digər aspektlər uğrunda təxirəsalınmaz mübarizə aparan ölkəmiz təcrübəsini artıraraq 44 günlük Vətən müharibəsində hibrid mübarizə meydanında informasiya cəbhəsinin əhəmiyyətini bir daha ön plana çıxardı. Hərbi əməliyyatların keçirildiyi döyüş meydanı ilə yanaşı, informasiya mübarizəsində yerli və beynəlxalq ictimaiyyətə operativ və dəqiq məlumatların çatdırılması, dezinformasiyaların faktlarla təkzib olunması, xarici qərəzsiz medialarla düzgün koordinasiya aparılması, sosial şəbəkələrdə informasiya axınının düzgün idarə edilməsi mühüm şərtlər kimi bir daha özünü göstərdi. Buradan da əsas nəticə ortaya çıxır ki, müharibənin gedişatı fiziki təsir olaraq döyüş meydanında deyil, ideoloji, mənəvi, psixoloji aspektlərlə digər cəbhələrdə də aparılır. Ölkəmizdə hibrid təhdidlərə qarşı aparılan dayanıqlı siyasətin mühüm tərkib hissəsini informasiya və kibertəhlükəsizliyinin əsasları təşkil edir. Bunun üçün də bu hücumlara cavab verməklə prioritet deyil, riskləri müəyyən etmək, qabaqlayıcı tədbirlər görmək, kadr potensialını təkmilləşdirmək və cəmiyyətin maarifləndirilməsi əsas sayılır.

Hibrid savaşların bundan sonrakı mərhələsini süni intellekt texnologiyaları olmadan təsəvvür etmək çətindir. Adıçəkilən texnologiya əldə olunan müxtəlifhəcmli məlumatı təhlil etməklə yanaşı, fərqli auditoriyalar üçün müxtəlif yanaşmalı ismarıcların hazırlanmasına, saxta məzmunlu məhsulların sürətli yaradılması və yayılmasına kömək edir. Günümüzdə texnologiyanın inkişafı sayəsində hibrid müharibə daha təhlükəli forma almağa başlayıb. Bu gün ölkə başçıları və rəhbərlərin səsi və görüntüsü imitasiya edilərək, saxta materialların hazırlanması asanlıqla mümkündür. Yaradılan videolar, fotolar və ya səs yazıları preventiv tədbirlər operativ və dəqiq görülmədikdə cəmiyyətə ciddi psixoloji və siyasi təsir göstərə bilər. Müasir dövrdə bununla mübarizə aparmaq üçün isə informasiya məkanının düzgün qorunması, cəmiyyətin məlumatlandırılması, kiberhücumlara qarşı müdafiənin gücləndirilməsi bu mübarizənin əsas üsul və vasitələri hesab olunur.

**Kapitan**
**Fuad CƏFƏROV**
**“Azərbaycan Ordusu”**

# Vətən Müharibəsi Qəhrəmanı Anar Əliyevin anım mərasimi keçirilib




Vətən uğrunda şəhidlik zirvəsinə yüksələn Vətən Müharibəsi Qəhrəmanı Əliyev Anar Vaqif oğlunun doğum günü münasibətilə anım tədbiri keçirilib.

Müdafiə Nazirliyinin əməkdaşları, ictimaiyyət nümayəndələri, qəhrəmanın ailə üzvləri və döyüş yoldaşları şəhidin məzarını ziyarət edib, önünə əklil və gül dəstələri qoyublar.

Müdafiə Nazirliyi xəbər verir ki, tədbirdə Ulu Öndər Heydər Əliyevin, eləcə də Vətən uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni ifa edilib.

Çıxış edənlər şəhidimizin döyüşlərdə göstərdiyi qəhrəmanlıq və şücaətlərindən söz açaraq şərəfli həyat yolundan danışıblar.

Vətən Müharibəsi Qəhrəmanının ailə üzvləri və yaxınları onlara göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərimizin xatirəsinin daim uca tutulduğuna görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, həmçinin Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.









(Əvvəli 1-ci səhifədə)

*Ballıqaya faciəsi - 34 il*

## Didərginlərin qanlı taleyi

Avqustun 28-də səhər saat 5 radələrində Ermənistan silahlı qüvvələrinin diversiya qrupunun 10-12 nəfər üzvü alaçıqları xüsusi amansızlıqla, iriçaplı silahlardan və qumbaraatanlardan atəşə tutur. Nəticədə özlərini müdafiə etməyə heç bir silahı belə olmayan, Ballıqayaya heyvandarlıqla məşğul olmağa gələn 24 mülki insan amansızlıqla öldürülür, 9 nəfər isə ağır yaralanır.

Ballıqaya qətliamı zamanı erməni quldurları 33 yaşlı Hüruzaman Hümbətovanı 6 azyaşlı övladı ilə birlikdə qətlə yetirərək yandırıblar. Vəzir Hümbətov Laçın rayonunun Nağdalı kəndindən çıxandan sonra yurd yeri tapmaq üçün pənah gətirdiyi Ballıqayada bütün ailəsini itirib. Hadisə baş verməzdən əvvəl köçmək üçün yer axtarmağa gedən ailə başçısı geri qayıtdığı vaxt qarşılaşdığı dəhşətdən danışıb:

"Mən Ballıqayaya gedəndə gördüm ki, Ağcakənddə post qurulub. Heç kimi buraxmırlar. Soruşdum nə olub? Dedilər ermənilər dinc sakinləri qətlə yetiriblər. Əraziyə çatanda gördüm ki, çoxlu insan yığılıb, bizim daxal (qamışdan düzəldilmiş daxma) odlanıb, 6 uşağım və yoldaşım yanıb. Sonra məlum oldu ki, ermənilər əvvəlcə ailəmi güllələyib, sonra od vurub yandırıblar. Daxmanın qalıqları yanıb tökülmüşdü cəsədlərin üstünə. Uşaqlarımın və yoldaşımın yanmış cəsədlərini maşına qoyub Bərdəyə gətirdik. Həyat yoldaşım Hürüzaman Hümbətova, oğullarım Elçin, Bəxtiyar, İsmayıl, Nəbadi, Canpolad və qızım Gülnarı bir kəfənə yığmışam. Meyit qalmamışdı, sümükləri yanmışdı, külləri qalmışdı. Hamısını bir kəfənə yığıb bir qəbirə qoymuşuq".

Ailə üzvlərini Ağdamın Güllücə kəndində dəfn edən Vəzir Hümbətov ermənilərin növbəti vandallığının qurbanı olub — həyat yoldaşını övladları ilə birlikdə dəfn etdiyi yer də işğal olunub. Uzun illər doğma yurdu ilə yanaşı, doğmalarının məzarının həsrətini çəkən müsahibim Azərbaycan Ordusunun qətiyyətli qələbəsi sayəsində doğmalarının məzarını ziyarət edib.

Faciə zamanı ailə üzvlərini və yaxın qohumlarını itirənlərdən biri də Yunis Mehdiyevdir. Mehdiyevlər ailəsinin 4 üzvü həmin qanlı gündə şəhid olub. Yunis Mehdiyev hücum nəticəsində yaxın qohumları ilə birlikdə 67 yaşlı anası Gülayə Mehdiyeva, 39 yaşlı qardaşı Rəhbər, onun həyat yoldaşı Nübar Kəlbalıyeva və 36 yaşlı bacısı Süreyyanı itirib:

"1992-ci ildə Laçın rayonu işğal edilən zaman doğma yurdumuzdan köçkün düşdük. Əvvəlcə Kəlbəcərdən keçib Toğanada, sonra isə Ballıqayada məskunlaşdıq. Ballıqayada qaldığımız üçüncü gün, səhər saat 5 radələrində ermənilər gəlib camaatı qanına qəltan elədilər. Qətliam zamanı anam, bacım, qardaşım, onun yoldaşı, əmim, əmimin yoldaşı, iki oğlu və qızı, bibim, bibimin iki qızı və qayınanası, əmim nəvələri vəhşicəsinə qətlə yetirildilər. Bundan əlavə, qardaşımın 3 uşağı meyitlərin arasında qan içində qalmışdı".

Lamiyə, Elxan və Məhəmməd Mehdiyevlər isə o gecədən sağ çıxa biliblər. Həmin gecə güllə-baran edilən çadırlardan birində onlar da olublar. Ermənilərin çadırları mühasirəyə alıb atəşə tutduğunu görən valideynləri - Rəhbər Mehdiyev və Nübar Kəlbalıyeva özlərini körpələrinin üstünə atıblar. Özləri sağ çıxa bilməsələr də, 3 körpəni qoruya biliblər. Çadıra girən ermənilər meyitlərin altında yaralı və qan içində olan uşaqların az sonra öləcəyini düşünərək oranı tərk ediblər.



Ermənilərin hücum etdiyi gün Yunis Mehdiyevin əmisi oğlu Sahib Mehdiyev və qardaşı Binnət Mehdiyev Gəncə şəhər xəstəxanasında olublar. Onlar geri qayıtdıqları gün ailədən 6 nəfərin öldürüldüyünü görüblər. Bir ailədən olan 62 yaşlı Hümbət Mehdiyev, onun həyat yoldaşı, 57 yaşlı Qənirə Mehdiyeva, övladları - 31 yaşlı Fikrət, 25 yaşlı Ayna, 19 yaşlı Mehdi və 33 yaşlı gəlini Bəyim də ermənilər tərəfindən vəhşicəsinə qətlə yetiriliblər.

Ballıqaya yaylağında baş verən qətliam nəticəsində aralarında 6 uşaq (o cümlədən 6 aylıq körpə) və 93 yaşlı ahıl qadın da olmaqla, ümumilikdə 24 nəfər azərbaycanlı mülki şəxs amansızlıqla qətlə yetirilib. Əksəriyyəti uşaqlar, qadınlar və qocalar olan qətlə yetirilmiş şəxslərin bəzilərinin meyitləri yandırılıb. Qətliam nəticəsində 3 azyaşlı uşaq hər iki valideynini itirib.

Soyqırımı qurbanlarından 3-ü - 1934-cü il təvəllüdlü Abdulla Abdullayev, 30 yaşlı oğlu Fərman və 19 yaşlı qızı Səadət Bərdənin Qaradəmirçi kənd məzarlığında dəfn olunublar. 60 yaşlı Minarə Almməmmədova və onun iki qız övladı - 20 yaşlı Zeynəb və 16 yaşlı Kəmalə Bərdə rayonunun Tumaslı kənd məzarlığında torpağa tapşırılıblar. Yunis və Sahib Mehdiyevlərin 10 nəfər ailə üzvü isə bir yerdə - Bərdə rayonunun Nazırlı kənd məzarlığında dəfn olunub.

Ballıqayada törədilən qətliam təkcə bir kəndin məhvi deyildi. Bu, bütün Azərbaycanın mübarizə ruhuna vurulan zərbə idi. Məqsəd əhalini qorxuya salmaq, kəndləri boşaltmaq və bölgədə etnik təmizləmə aparmaq idi. Erməni silahlılarının törətdiyi vəhşiliklə Laçın sakinləri həm evlərindən didərgin düşdülər, həm ailə üzvlərini itirdilər, həm də doğmalarının məzarlarını.

Ballıqaya faciəsi Ermənistan silahlı qüvvələrinin bundan əvvəl Xocavəndin Qaradağlı kəndində, Xocalıda, Kəlbəcərin Ağdaban kəndində Qarabağın azərbaycanlı əhalisini kompakt şəkildə məhv etmək niyyəti ilə törətdiyi silsilə kütləvi qırğın aktlarından biridir. Bu qətliam zamanı beynəlxalq humanitar hüquq normaları kobud şəkildə pozulub, bəşəri dəyərlərə zidd olaraq mülki insanlar - azyaşlılar, qadınlar və qocalar qətlə yetiriliblər.

Ballıqaya qətliamı ilə bağlı materiallar, maddi sübutlar və faktlar Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Memorial Soyqırımı Muzeyində saxlanılır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 sentyabr 1996-cı il tarixli 125 saylı qərarı ilə Laçın rayonu Nağdalı kənd klubuna Rəhbər Məhəmməd oğlu Mehdiyevin adı verilib.

Müharibənin öz qanunları var, amma bunun adı müharibə deyildi; bu, açıqca insanlığa qarşı amansızlıq, kin və nifrət idi. İnsanlığa sığmayan bu dəhşət daha sonra Kəlbəcər rayonunun Başlıbel kəndində baş verdi. Dünya ictimaiyyəti isə gözünü yumdu, səsini kəsdi. Bu ədalətsiz sükut bir daha sübut etdi ki, Azərbaycan öz haqq səsini yalnız özü ucalda bilər. Beləliklə, xalqımız illərlə erməni vəhşiliyini xatırlayaraq güc topladı. Çünki yaddaşda qalan hər qanlı səhifə gələcəkdə ədalətin bərqərar olması üçün əsas idi. Nəhayət, Azərbaycan öz torpaqlarını işğaldan azad etməklə bir daha göstərdi ki, Ballıqaya kimi faciələrin intiqamı ədalət, mübarizə və güclə alınır.

**Leytenant
Tamilla HÜSEYNLİ
"Azərbaycan Ordusu"**

*Heç kim unudulmur*

# Şəhidlərimizin əziz xatirəsi daim yaşayacaq

*Azərbaycan Ordusu bu gün yüksək döyüş hazırlığı, peşəkar şəxsi heyəti və müasir imkanları ilə ölkənin təhlükəsizliyinin və müdafiəsinin etibarlı təminatçısıdır. Ordunun gücləndirilməsi, hərbi qulluqçuların hazırlığının yüksəldilməsi və müasir tələblərə uyğun hərbi infrastrukturun formalaşdırılması dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi hər zaman diqqət mərkəzində saxlanılır. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğuna göstərdiyi diqqət və qayğı bu prosesin ardıcıl şəkildə həyata keçirilməsində mühüm rol oynayır. Azərbaycan Ordusunun maddi-texniki bazasının yenilənməsi və müasir silah sistemləri ilə təchizatı ordumuzun əməliyyat imkanlarının genişlənməsinə şərait yaradıb.*



Bununla yanaşı, hərbi təhsilin və hazırlıq sisteminin təkmilləşdirilməsi peşəkar hərbi kadrların yetişdirilməsinə imkan verib. Döyüş hazırlığının daim diqqətdə saxlanılması Azərbaycan Ordusunun müxtəlif şəraitlərdə fəaliyyət göstərmək qabiliyyətini artırıb. Hərbi hissələrdə keçirilən təlimlər şəxsi heyətin nəzəri biliklərinin praktiki bacarıqlarla möhkəmləndirilməsinə xidmət edir.

Azərbaycan Ordusunun hərbi kadrlarının peşəkarlığı və döyüş meydanında nümayiş etdirdiyi iradə xüsusilə 44 günlük Vətən müharibəsi zamanı özünü aydın şəkildə göstərdi. Həmin günlərdə hərbi qulluqçular qarşıya qoyulan döyüş tapşırıqlarını yüksək məsuliyyət və peşəkarlıqla



yerinə yetirdilər. Müharibənin mürəkkəb şəraiti şəxsi heyətin fiziki hazırlığını, hərbi intizamını və döyüş ruhunu ciddi sınaqdan keçirdi. Ordumuzun hərbi qulluqçuları müxtəlif istiqamətlərdə aparılan döyüşlərdə çeviklik, əzmkarlıq və qarşılıqlı fəaliyyət nümayiş etdirdilər. Döyüş meydanında verilən qərarların vaxtında icrası hərbi qulluqçuların hazırlıq səviyyəsinin mühüm göstəricilərindən birinə çevrildi. Çətin relyef, ağır hava şəraiti və davamlı döyüşlər şəraitində tapşırıqları yerinə yetirmək böyük dözüm tələb edirdi. Bu sınaqlar zamanı Vətən müdafiəçilərinin peşəkarlığı ilə yanaşı, onların mənəvi-psixoloji möhkəmliyi də özünü göstərdi. Bir çox hərbi qulluqçu həyatını təhlükə qarşısında qoyaraq silahdaşlarının və döyüş yoldaşlarının yanında dayandı. Döyüşlərdə şəhid olan hərbi qulluqçular isə Vətənin müdafiəsi naminə həyatlarını fəda etdilər. Onların göstərdiyi igidlik və şücaət xalqımızın yaddaşında xüsusi yer tutdu. Şəhidlərin həyat və döyüş yolu yalnız bir ailənin deyil, bütövlükdə xalqın yaddaşında qorunan mənəvi dəyərdir. Hər bir şəhidin adı və göstərdiyi mərdlik Azərbaycan Ordusunun tarixində özünəməxsus iz qoyur. Vətən qarşısında fədakarlığı, xidmətə məsuliyyətli münasibəti və döyüş yolu ilə seçilən hərbi qulluqçuların həyatı bu tarixin mühüm səhifələrindən biridir. Belə Vətən müdafiəçilərindən biri də Vətəninə sədaqəti ilə seçilən Sübhan Məmmədlidir.

Sübhan Məmmədli 1994-cü il avqustun 12-də Kəngərli rayonunun Xıncab kəndində anadan olub. O, 2000-ci ildə Xıncab tam orta məktəbində oxuyub. Məktəb illərində məsuliyyətli və nizam-intizamlı olması ilə seçilib. Sübhan 2009-cu ildə Heydər Əliyev adına Hərbi Liseyə qəbul olub. Burada qazandığı bilik və bacarıqlar gələcək zabitlik fəaliyyətinin əsasını formalaşdırıb. Hərbi liseydəki təhsil illəri onun intizamlı həyat tərzinə uyğunlaşmasına və hərbi qaydaları mənimsəməsinə imkan verib. Və nəhayət, Hərbi liseyi müvəffəqiyyətlə bitirdikdən sonra 2012-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (indiki Heydər Əliyev adına Hərbi İnstitut) təhsil almağa başlayıb. Təhsilini başa vurduqdan sonra 2016-cı ildə "leytenant" rütbəsinə layiq görülərək Azərbaycan Ordusunun sıralarında xidmətə başlayıb. İlk xidmət yerində qazandığı təcrübə onun zabit kimi formalaşmasında mühüm mərhələ olub. O, taqım komandiri vəzifəsində xidmətə başlayıb. Hərbi nizam-intizam, peşəkarlıq və xidmətə sədaqət Sübhan Məmmədlinin zabitlik fəaliyyətinin əsas xüsusiyyətlərinə çevrilib.

2017-ci ildə xidmət etdiyi hərbi hissədə bölük komandiri kimi fəaliyyət göstərdiyi dövrdə şəxsi heyətin idarə olunması, hərbi nizam-intizamın qorunması və qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsi onun gündəlik xidmətinin əsas istiqamətlərini təşkil edirdi. Müxtəlif xidmət şəraitlərində qazandığı təcrübə hərbi hazırlığının və idarəçilik bacarıqlarının da daha da möhkəmlənməsinə şərait yaradıb. 2019-cu il iyunun 26-da "baş leytenant" rütbəsinə yüksəlməsi onun xidmət fəaliyyətində növbəti mərhələ olub.

Sübhan zabit kimi yalnız verilən tapşırıqları yerinə yetirməklə kifayətlənmir, rəhbərlik etdiyi şəxsi heyətin hazırlığına və döyüş qabiliyyətinin yüksəldilməsinə də diqqət yetirib. Onun üçün hərbi xidmət gündəlik vəzifədən daha çox, üzərinə götürdüyü məsuliyyətin ifadəsi idi. Bu yanaşma onun həm xidmət yoldaşları, həm də tabeliyində olan hərbi qulluqçular arasında hörmət qazanmasında müsbət rol oynayıb.

Şəhid Sübhan Məmmədlidən yadigar iki qız övladı qalıb. Böyük qızı Ömür onun həyatında xüsusi yer tuturdu. Kiçik qızı Sübhanə isə atasının şəhidliyindən altı ay sonra dünyaya gəlib. Sübhanə atasının adını ailədə yaşadan övlad kimi böyüyür. Onlar mütəmadi olaraq indiki Hərbi Memorial Məzarlıqda atasının məzarını ziyarət edirlər. Hər gəlişdə həmin məzar ailənin həm ağrısını, həm də Sübhan Məmmədlinin adının gələcək nəsillərdə yaşadılacağına olan bağlılığını özündə yaşadır.

Sübhan Məmmədlinin həyat və xidmət yolunun mühüm məqamları onun ailəsinin xatirələrində də qorunur. Bu xatirələri daha yaxından öyrənmək üçün atası Səbuhi Məmmədovla söhbət etdik. O, Birinci Qarabağ müharibəsi iştirakçısı və veteranı kimi Naxçıvanın Sədərək və Buzqov istiqamətlərində gedən döyüşlərdə iştirak edib. Vətənin müdafiəsində döyüş yolu keçmiş bir ata üçün oğlunun hərbçi kimi yetişməsi xüsusi məna daşıyırdı. Sübhanın uşaqlıqdan hərb sahəsinə maraq göstərməsi, hərbi təhsil alması və zabit kimi formalaşması ailədəki Vətənə bağlılıq ənənəsi ilə səsləşirdi.

Vətən müharibəsi ərəfəsində isə ailə qarşıdakı ağır sınağın miqyasını bilmədən gündəlik həyatını davam etdirirdi. Səbuhi Məmmədov həmin günləri belə xatırlayır: "Sübhanın Vətənə bağlılığı hələ müharibə başlamazdan əvvəl də onun davranışlarında özünü göstərirdi. General-mayor Polad Həşimovun şəhid olması xəbərini eşidəndə o üç gün yemək yemədi. Vətən müharibəsi başlamamışdan əvvəl Sübhan məzuniyyətdə idi. Bir də-



fə çağırdılar, amma sonra yenə evə qayıtdı. 2020-ci il sentyabrın 27-si yenə getdi, amma qayıtmadı. Biz bilmirdik ki, həmin gün müharibə başlayacaq. Müharibənin başlamasını isə televiziyadan öyrənmişdik. Şəhid olmamışdan əvvəl oktyabrın 5-nə qədər əlaqəmiz olub. Sonra şəhid xəbərini eşitdik".

Atanın bu xatirəsində müharibənin ilk günlərinin ailə üçün nə qədər gözlənilməz və ağır olduğu aydın hiss olunur. Sübhanın həmin səhər yenidən xidmətə yollanması ailənin yaddaşında onun son gedişi kimi qalıb. O zaman heç kim bu gedişin sonuncu vida olduğunu bilmirdi. Sonrakı günlərdə ailənin həyatına Sübhanın şəhid olması ilə bağlı ağır xəbər daxil oldu. Onun döyüş yolu Vətən qarşısında üzərinə düşən vəzifəni sonadək yerinə yetirən bir zabitin həyatının



mühüm səhifəsi kimi yadda qaldı. Səbuhi Məmmədovun xatirələri oğlunun son günlərinə işıq salmaqla yanaşı, bir atanın övladı ilə bağlı daşıdığı qürur və ağrını da əks etdirir.

Səbuhi Məmmədov oğlunun xidmət yoldaşlarının və dostlarının onları unutmadığını bildirir. Onun sözlərinə görə, Sübhanın xidmət yoldaşlarından biri olan İlkin öz oğluna onun adını verib. Bu hadisə şəhid zabitin onu tanıyan insanların yaddaşında buraxdığı izin nümunələrindən biridir.

Sübhan Məmmədlinin həyatından danışarkən anasının xatirələri də onun şəxsiyyətini və hərbi xidmətə münasibətini tamamlayan mühüm məqamları üzə çıxarır. Anası oğlunun uşaqlıqdan məsuliyyətli və işinə ciddi yanaşan biri olduğunu xatırlayır: "Sübhanın vətənpərvərliyi gündəlik davranışlarında və insanlarla münasibətində də özünü göstərirdi. Oğlumun xidmət etdiyi son hərbi hissənin Bakı şəhərinə yaxın olması səbəbindən tez-tez ailəsi ilə birlikdə bizi ziyarət edirdi. O, işini çox yaxşı bilən, verilən tapşırıqlara məsuliyyətlə yanaşan zabit kimi tanınırdı. Bu xüsusiyyət onun hərbi intizamına və üzərinə düşən vəzifəyə ciddi münasibətinin göstəricisi idi. Evdən xidmət yerinə gedərkən özü ilə əsgərlərə şirniyyat aparırdı. Əsgərlərin bir qisminin sonradan öz övladlarına Sübhanın adını qoyması onun həmin insanlarda yaratdığı hörmətdən xəbər verir. Hazırda yaşadığımız ərazidə küçələrin biri Sübhanın adını daşıyır".

Sübhanın ailəsində isə onun adı və xatirəsi övladları ilə bağlı xüsusi məna daşıyır. Kiçik qızı Sübhanə atasının yoxluğunu dərk etdikcə onunla bağlı suallar verir və "Mənim atamla niyə şəklim yoxdur?" deyə soruşurdu. Bu sadə uşaq sualı ailənin yaşadığı itkinin ən ağrılı tərəflərindən biri idi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən Sübhan Məmmədli ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

**Kapitan**
**Əli ABIYEV**
**"Azərbaycan Ordusu"**

# Qarabağ - Zəfərimizin və qürurumuzun ünvanı

(Əvvəli 1-ci səhifədə)

Buna görə də ordu quruculuğu dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunda vahid komandanlıq və möhkəm hərbi nizam-intizam formalaşdırıldı, hərbi qulluqçuların peşəkarlığının artırılmasına, döyüş hazırlığının yüksəldilməsinə xüsusi diqqət yetirildi. Hərbi təhsilin inkişafı, milli zabit kadrlarının hazırlanması və ordunun maddi-texniki bazasının gücləndirilməsi istiqamətində mühüm islahatlar həyata keçirildi.

Dünyaşöhrətli siyasətçi Heydər Əliyevin yürütdüyü ordu quruculuğu siyasətinin əsas məqsədi yalnız həmin dövrün hərbi problemlərini həll etmək deyildi. O, gələcəyin müasir Azərbaycan Ordusunun təməlini yaradırdı. Dahi Rəhbər Heydər Əliyev inanırdı ki, Azərbaycan xalqı öz torpaqlarına mütləq qayıdacaq, ərazi bütövlüyümüz bərpa olunacaq. Bu inam sonrakı illərdə tarixi reallığa çevrildi.

Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev dövlət başçısı seçildiyi ilk gündən Azərbaycanın ərazi bütövlüyünün bərpasını qarşıya qoyulan əsas vəzifələrdən biri kimi müəyyənləşdirdi. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz hərtərəfli inkişaf yoluna qədəm qoydu. Ölkənin iqtisadi qüdrəti artdı, beynəlxalq mövqeyi möhkəmləndi. Güclü iqtisadiyyatın yaratdığı imkanlar ordu quruculuğuna da öz müsbət təsirini göstərdi.

Azərbaycan Ordusunun maddi-texniki təminatı gücləndirildi, müasir silah və hərbi texnika alındı, şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsi istiqamətində ardıcıl işlər həyata keçirildi. Hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması, yeni hərbi şəhərciklərin salınması, mövcud infrastrukturun yenilənməsi də diqqət mərkəzində saxlanıldı.




Müasir döyüş təcrübəsinin öyrənilməsi, beynəlxalq hərbi əməkdaşlığın genişləndirilməsi və müxtəlif istiqamətlərdə təlimlərin keçirilməsi Azərbaycan Ordusunun peşəkarlığının daha da yüksəlməsinə imkan verdi.

Bütün bunlar heç də təsadüfi deyildi. Qarşıda böyük və müqəddəs məqsəd dayanırdı - işğal altında olmuş torpaqlarımızın azad edilməsi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sistemli şəkildə apardığı məqsədyönlü diplomatik fəaliyyəti Qarabağ məsələsinin dünya ictimaiyyətinə çatdırılmasında mühüm rol oynadı. Azərbaycan öz haqq mövqeyini beynəlxalq platformalarda ardıcıl şəkildə müdafiə etdi. Ölkəmizin ərazi bütövlüyü və suverenliyi məsələsi dövlət siyasətinin dəyişməz prioriteti olaraq qaldı. Beləliklə, hərbi, siyasi, iqtisadi və diplomatik istiqamətlərdə görülən işlər Azərbaycanın gələcək Zəfəri üçün möhkəm zəmin yaratdı.

Azərbaycan Ordusunun gücü və döyüş qabiliyyəti müxtəlif illərdə keçirilən hərbi əməliyyatlarda və döyüşlərdə özünü göstərdi. 2016-cı ilin Aprel döyüşləri Azərbaycan Ordusunun gücünü nümayiş etdirən mühüm əməliyyatlardan biri oldu. Rəşadətli ordumuz düşmənə sarsıdıcı zərbələr endirərək bir sıra strateji yüksəklikləri azad etdi. Aprel döyüşləri həm də Azərbaycan əsgərinin yüksək döyüş ruhunu və peşəkarlığını nümayiş etdirdi. 2018-ci ilin Günnüt əməliyyatı da ordumuzun gücünün və şəxsi heyətinin döyüş hazırlığının göstəricilərindən biri oldu.

2020-ci ilin iyulunda Tovuz istiqamətində gedən döyüşlər isə xalqımızın və ordumuzun Vətən sevgisini bir daha nümayiş etdirdi. Həmin günlərdə Azərbaycan xalqı öz ordusunun ətrafında sıx birləşdi. Cəmiyyətdə yaranan milli həmrəylik Vətən müharibəsi ərəfəsində xalqımızın mənəvi gücünü daha da artırdı.

Nəhayət, 2020-ci il sentyabrın 27-də Ermənistanın Azərbaycana qarşı törətdiyi növbəti genişmiqyaslı təxribatlara ordumuz əks-hücum əməliyyatı ilə cavab verdi və Vətən müharibəsi başladı.

44 gün davam edən Vətən müharibəsi Azərbaycan tarixinin ən şanlı səhifələrindən birinə çevrildi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu düşmənin uzun illər ərzində qurduğu istehkamlarını yararaq vaxtilə işğal altında olmuş ərazilərin azad olunması istiqamətində ardıcıl uğurlar qazandı. Azərbaycan əsgəri döyüş meydanında misilsiz qəhrəmanlıq göstərdi. Belə ki, dağlıq ərazilərdə, çətin relyef şəraitində, düşmənin möhkəmləndirilmiş mövqelərinə qarşı aparılan əməliyyatlarda igidlik nümunələri göstərdi. Vətən müharibəsi bir daha göstərdi ki, Azərbaycan Ordusu yüksək döyüş qabiliyyətinə malik, müasir hərbi texnologiyalardan səmərəli istifadə edən və qarşısında qoyulan tapşırıqları yerinə yetirməyə qadir olan qüdrətli ordudur.

Vətən müharibəsinin hər günü Azərbaycan xalqının yaddaşında ayrıca bir qəhrəmanlıq salnaməsi kimi qalıb. Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Hadrut və digər yaşayış məntəqələrinin azad edilməsi Zəfər yolunun mühüm mərhələlərini təşkil etdi. Bu yolun ən möhtəşəm zirvəsi isə Şuşanın azad olunması idi.

8 noyabr 2020-ci il isə Azərbaycan hərb tarixinin yaddaşlara əbədi olaraq həkk olunan günlərindəndir. Həmin gün Azərbaycanın mədəniyyət beşiyi, Qarabağın incisi olan Şuşa şəhəri işğaldan azad edildi və bu, Azərbaycan hərb tarixinə qızıl hərflərlə yazıldı.



Şuşanın azad edilməsi ilə düşmənin hərbi-siyasi mövqelərinə ağır zərbə vuruldu. Bu tarixi hadisə Vətən müharibəsinin taleyində həlledici rol oynadı.

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev radio və televiziya vasitəsilə Şəhidlər xiyabanından xalqa müraciət etdi: "Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir!. 28 il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz bu tarixi qələbəni döyüş meydanında qazandıq! 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır!. Bu tarixi gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda ən xoşbəxt günlərdən biridir. Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".

Prezident İlham Əliyevin bu müjdəsi Azərbaycan xalqının hər bir nümayəndəsinin qəlbində böyük sevinc və qürur yaratdı. Şuşanın azad edilməsi hərbi qələbə olmaqla bərabər, həm də xalqımızın milli-mədəni irsinin, tarixi yaddaşının və mənəvi dəyərlərinin öz sahibinə qaytarılması idi. Müzəffər Ali Baş Komandan İlham Əliyev öz tarixi çıxışında bu ifadələri də xüsusilə vurğuladı: "Mən xoşbəxtəm ki, ata vəsiyyətini yerinə yetirdim!".

Torpaqlarımızın azad edilməsi uğrunda Vətənimizin igid oğulları öz həyatlarını Azərbaycanın ərazi bütövlüyünün bərpasına və onun suverenliyinin qorunmasına həsr etdilər. Qəhrəman döyüşçülərimizin döyüş yolu Vətənə sədaqətin, sevginin nümunəsi oldu.

Bu gün Azərbaycan Ordusunun hər bir əsgəri şəhidlərimizin bizə əmanət etdiyi müqəddəs torpaqları qorumağın məsuliyyətini daşıyır. Hərbi qulluqçularımız ölkəmizin sərhədlərində ayıq-sayıq dayanırlar.

Vətən müharibəsində qazanılan tarixi Zəfərdən sonra qarşıda yeni və böyük bir vəzifə dayandı - işğaldan azad edilmiş ərazilərin bərpası və keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışının təmin edilməsi. Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa-quruculuq işlərinə başlanıldı. Dağıdılmış şəhər və kəndlər yenidən abadlaşdırılır, infrastruktur layihələr genişləndirilir.

Bu gün Qarabağda yeni həyatın nəfəsi duyulur. Uzun illər doğma yurd həsrəti ilə yaşayan insanlar Prezident İlham Əliyevin Böyük Qayıdış Dövlət Proqramı çərçivəsində mərhələli şəkildə öz torpaqlarına qayıdırlar. Onlar uzun illərin sınağından mətinliklə keçərək öz isti ocaqlarını yenidən qururlar.

Böyük Qayıdış Proqramı Azərbaycanın tarixi Zəfərdən sonrakı inkişaf strategiyasının mühüm istiqamətidir. Qarabağ iqtisadi zonasında aparılan bərpa-quruculuq işləri bir daha göstərdi ki, Azərbaycanın gücü döyüş meydanında olduğu kimi, quruculuq işlərində də özünü büruzə verir.

Bu gün rəşadətli Azərbaycan Ordusu sübut edib ki, Vətənin müdafiəsi onun üçün ən ali vəzifədir. Artıq Qarabağ həsrət ünvanı deyil. Qarabağ Zəfərimizin, qürurumuzun və Böyük Qayıdışımızın ünvanıdır. Bu torpaqlarda dalğalanan üçrəngli bayraq şəhidlərimizin ruhuna ehtiramımızın və gələcək nəsillərə əmanət etdiyimiz Zəfər tariximizin rəmzidir.

**Kifayət ƏLİYEVA**
**"Azərbaycan Ordusu"**

# "Eternity-2026" təliminin yekun planlaşdırma konfransı keçirilib



Azərbaycan, Türkiyə və Gürcüstan hərbi qulluqçularının iştirakı ilə keçirilən "Eternity-2026" kompüter dəstəkli komanda-qərargah təliminin yekun planlaşdırma konfransı başa çatıb.

Müdafiə Nazirliyi xəbər verir ki, üçtərəfli hərbi əməkdaşlıq planına əsasən təşkil olunan konfransda təlim ssenarisi, taktiki tapşırıqlar, eləcə də iştirakçı heyətin logistik və hərtərəfli təminat məsələləri razılaşdırılıb.

Təlimin əsas məqsədi mümkün təhdidlərə qarşı birgə mühafizə tədbirlərinin planlaşdırılması, regionun strateji əhəmiyyətli iqtisadi və enerji infrastrukturlarının, nəqliyyat dəhlizlərinin, eləcə də digər beynəlxalq layihələrin təhlükəsizliyinin təmin edilməsi məqsədilə hərbi bölmələr arasında qarşılıqlı fəaliyyət imkanlarının artırılmasıdır.

Konfransın sonunda təlim tapşırıqları razılaşdırıldığı və təlimə hazırlıq mərhələsinin tamamlandığı bildirilib, yekun protokol imzalanıb.



# “YAŞAT” Fondu altıncı “Məktəbli ləvazimatları” layihəsini reallaşdırır

“YAŞAT” Fondunun və “PAŞA Holding”-in birgə təşkilatçılığı ilə altıncı dəfə “Məktəbli ləvazimatları” layihəsi reallaşdırılır.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, yeni tədris ilinin başlanması ilə əlaqədar şəhidlərimizin 1-11-ci siniflərdə təhsil alan məktəbli övladlarına illik dərs ləvazimatlarından ibarət hədiyyə qutuları çatdırılır.

Respublikanın bütün ərazisi üzrə 950-dən çox şəhidin 1600-dək övladı üçün qutu hazırlanıb və aidiyyəti üzrə çatdırılacaq. Ümumilikdə məktəblilərin 850 nəfərə qədəri oğlan, 740 nəfərə qədəri isə qızdır.

Layihə hazırda davam edir və hədiyyə qutularının şəhid övladlarına çatdırılması mərhələli şəkildə həyata keçirilir.

“Uşaqlarımızın təhsil yolunu işıqlandırmaq və gələcəyə olan inamlarını möhkəmləndirmək bizim üçün sevinc və qürur mənbəyidir. Hədiyyə qutularının Naxçıvana çatdırılmasındakı dəstəyə görə Azərbaycan Hava Yollarına təşəkkür edirik. Qələbəni bizə yaşadanları YAŞAT!”, - deyə məlumatda vurğulanıb.








# “ADEX”də yeni rekord: Sərgi üçün ilk dəfə Bakı Ekspo Mərkəzinin 5-ci pavilyonu istifadəyə verilir

Müdafiə sənayesi sahəsinin ən mötəbər beynəlxalq tədbiri, Qafqaz regionunun bu sahə üzrə ən böyük ixtisaslaşmış sərgisi və hərbi-texniki əməkdaşlığın əsas platformalarından olan “ADEX” – 6-cı Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi 30 sentyabr – 2 oktyabr tarixlərində Bakı Ekspo Mərkəzində keçiriləcək.

“Caspian Event Organisers” şirkətindən AZƏRTAC-a bildirilib ki, təşkil olunduğu ilk illərdən etibarən Prezident İlham Əliyevin “ADEX”i ziyarət edərək yaxından tanış olması, tədbirin iştirakçılarına və qonaqlarına salamlama məktubu ünvanlaması sərgiyə dövlət səviyyəsində yüksək diqqətin təzahürüdür. Bu, sərgiyə böyük etimadı nümayiş etdirməklə yanaşı, onun Azərbaycanın beynəlxalq nüfuza malik milli brendi statusunu təsdiqləyir.

“ADEX” Müdafiə Sənayesi Nazirliyinin təşəbbüsü və təşkilatçılığı, Müdafiə Nazirliyinin dəstəyi ilə keçirilir. Sərginin təşkilatçısı “Caspian Event Organisers” şirkətidir.

Azərbaycanın milli brendi olan “ADEX”in tarixində bu il ilk dəfə olaraq Bakı Ekspo Mərkəzinin 5-ci pavilyonu istifadəyə veriləcək. Sərgi üçün rekord hesab edilən bu mühüm yenilik “ADEX”in artıq yeni inkişaf mərhələsinə qədəm qoyduğunu göstərir. Beşinci pavilyonun fəaliyyətə başlaması sadəcə ekspozisiya sahəsinin genişləndirilməsi deyil, “ADEX”in ildən-ilə artan nüfuzunun, beynəlxalq müdafiə sənayesində möhkəmlənən mövqeyinin və ona göstərilən böyük marağın əyani ifadəsidir.

Yeni ölkələrin və dünyanın tanınmış müdafiə sənayesi şirkətlərinin sərgiyə qoşulması, ənənəvi iştirakçıların isə “ADEX”də təmsilçiliklərini davam etdirməsi sərginin miqyasındakı rekord genişlənməni şərtləndirən əsas amillərdir.

İndiyədək dünyanın 20-dən çox ölkəsindən 200-dən artıq şirkətin “ADEX 2026”da iştirakını təsdiqləməsi sərgiyə olan beynəlxalq marağı aydın şəkildə ortaya qoyur. Bu il Amerika Birləşmiş Ştatlarının (ABŞ) “ADEX 2026”da fəal iştirakı xüsusi diqqət çəkir. Belə ki, ABŞ-nin “SIG SAUER” və “Lockheed Martin” kimi nüfuzlu şirkətləri “ADEX”də debüt edəcək. Böyük Britaniya və Almaniya ilk dəfə olaraq “ADEX 2026”nın iştirakçı ölkələri sırasına qoşulacaq. Almaniyanı sərgidə nüfuzlu “Rheinmetall” şirkəti təmsil edəcək. Bütün bunlar “ADEX”in beynəlxalq iştirak coğrafiyasının və nüfuzlu tərəfdaşlar dairəsinin genişlənməsinin bariz göstəricisidir.

Türkiyədən “ADEX 2026”nın baş sponsoru qismində çıxış edən “ROKETSAN”, həmçinin “ASELSAN Elektronik San. ve Tic. A.Ş.”, “BAYKAR”, “Turkish Aerospace Industries” (TAI) və “HAVELSAN Elektronik San. ve Tic. A.Ş.”, İtaliyadan “Leonardo”, Çexiyadan “Excalibur Army SPOL S.R.O”, Birləşmiş Ərəb Əmirliklərindən “EDGE Group” və İspaniyadan “INDRA” ADEX-in ənənəvi beynəlxalq iştirakçıları arasında yer alır.

Fərdi şirkətlərlə yanaşı, bir sıra ölkələr “ADEX 2026”da milli qruplar şəklində iştirak edəcək. Belarus, Çexiya, İtaliya, Türkiyə və Slovakiya əvvəlki illərdə olduğu kimi, bu il də milli ekspozisiyalarla təmsil olunaraq müdafiə sənayesi sahəsində məhsul və texnoloji həllərini nümayiş etdirəcək.

Azərbaycanın müdafiə-sənaye kompleksinin gücü və texnoloji potensialı “ADEX 2026”da beynəlxalq auditoriyaya geniş şəkildə təqdim olunacaq. Belə ki, “ADEX 2026”nın əsas yeniliklərindən biri Bakı Ekspo Mərkəzinin 4-cü pavilyonunun ilk dəfə olaraq milli ekspozisiyaya ayrılmasıdır. Pavilyonda Azərbaycanın müdafiə sənayesi, texnologiya, kosmik sənaye və mühəndislik sahələrini təmsil edən qurum və şirkətlər yer alacaq. Milli pavilyonda Müdafiə Sənayesi Nazirliyi, Müdafiə Nazirliyi, Minatəmizləmə Agentliyi, Kosmik Agentliyi - “Azərkosmos”, “Rynex Solutions” MMC, “Synapline Technologies”, “Vektor DS”, “Miras Military Industrial Company” LLC, “ITX MOTORS”, Milli Müdafiə Universiteti, “RD Smart” ASC, “Az-Tex-Import” LLC, “AZEL Systems” və “Azərsilah” Müdafiə Sənayesi Holdinqi təmsil olunacaq.




Müdafiə Sənayesi Nazirliyi sərgini dəstəkləməklə yanaşı, tabeliyində olan “Azərsilah” Müdafiə Sənayesi Holdinqi” QSC ilə birgə stendlə təmsil olunacaq. Burada mövcud istehsal və texnoloji imkanlar, eləcə də ən son yeniliklər nümayiş etdiriləcək. Müdafiə Nazirliyi də sərgidə ayrıca stendlə iştirak edərək, fəaliyyət istiqamətlərini və imkanlarını təqdim edəcək.

“ADEX” sərgisinə artan beynəlxalq maraq yalnız iştirakçı şirkətlərin sayında deyil, rəsmi nümayəndə heyətlərinin iştirakında da özünü göstərir. İndiyədək 26 ölkədən 32 rəsmi nümayəndə heyəti sərgidə iştirakını təsdiqləyib. Müxtəlif ölkələri təmsil edən yüksəksəviyyəli nümayəndə heyətlərinin iştirakı sərgi çərçivəsində ikitərəfli görüşlərin keçirilməsinə, müdafiə sənayesi sahəsində əməkdaşlıq perspektivlərinin müzakirəsinə və yeni əlaqələrin qurulmasına şərait yaradacaq.

“ADEX 2026”nın ekspozisiyası müdafiə sənayesinin müxtəlif istiqamətlərini əhatə edəcək. Sərgidə aviasiya və pilotsuz sistemlər, radioelektron mübarizə vasitələri, C4ISR texnologiyaları, müasir silah-sursat və hərbi texnika nümunələri nümayiş etdiriləcək.

Bu istiqamətlərin eyni sərgi məkanında təqdim olunması “ADEX”in yalnız ayrı-ayrı məhsulların nümayişi ilə məhdudlaşmadığını göstərir. Sərgi müasir müdafiə sənayesinin müxtəlif texnoloji sahələrini bir araya gətirən geniş ekspozisiya formalaşdırır.

“ADEX 2026” ilə paralel olaraq Bakı Ekspo Mərkəzində 15-ci Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə Avadanlıqları Sərgisi – “Securex Caspian” də keçiriləcək.

“Securex Caspian” Müdafiə Sənayesi Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Sərhəd Xidməti, Dövlət Təhlükəsizliyi Xidməti, Daxili İşlər Nazirliyi, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Azərbaycan Sərgi Təşkilatçıları Assosiasiyasının dəstəyi ilə təşkil olunur.

Bu il miqyası əvvəlki illərlə müqayisədə daha da genişlənən “Securex Caspian” sərgisində kibertəhlükəsizlik sektoru diqqət mərkəzində olacaq. Bu istiqamətdə ən son texnologiyalar, innovativ həllər və qabaqcıl yanaşmalar nümayiş etdiriləcək.

“ADEX” və “Securex Caspian” sərgilərinin paralel keçirilməsi müdafiə sənayesi ilə daxili təhlükəsizlik istiqamətlərini vahid məkanda birləşdirəcək. Nəticədə müdafiə sənayesi texnologiyaları və hərbi texnika ilə yanaşı, daxili təhlükəsizlik, mühafizə, xilasetmə avadanlıqları və kibertəhlükəsizlik həlləri də təqdim olunacaq.

“ADEX 2026” və “Securex Caspian 2026”nın proqramı yalnız ekspozisiyadan ibarət olmayacaq. Sərgilərdə iştirakçı və ziyarətçilərə müdafiə sənayesi, daxili təhlükəsizlik, təhsil və kadr hazırlığı, innovasiyalar və yüksək texnologiyalar üzrə zəngin işgüzar proqram təqdim ediləcək.

Proqram çərçivəsində strateji, akademik, innovasiya, texnologiya, təlim və digər sessiyalar, həmçinin müxtəlif tədbirlər keçiriləcək. Bu tədbirlər peşəkar müzakirələrin aparılmasına və təcrübə mübadiləsinə şərait yaradacaq.

İşgüzar proqramın əsas elementlərindən biri “Gələcəyin Milli Hərbi Sənaye Kompleksi” adlı startap layihəsinin təqdimatı olacaq. Layihənin proqrama daxil edilməsi “ADEX”in innovativ təşəbbüslərə və perspektiv texnoloji həllərə dəstək ənənəsinə sadiq qaldığını göstərir.

“ADEX 2026” çərçivəsində Azərbaycanın dövlət qurumlarının nümayəndələri, beynəlxalq nümayəndə heyətləri və iştirakçı şirkətlər arasında keçiriləcək ikitərəfli danışıqlar xüsusi əhəmiyyət daşıyacaq. Bu görüşlər yeni işgüzar əlaqələrin qurulmasına, hərbi-texniki əməkdaşlığın genişləndirilməsinə, birgə layihələrin həyata keçirilməsinə və uzunmüddətli strateji tərəfdaşlıqların formalaşdırılmasına imkan yaradacaq.

Sərginin peşəkar istiqaməti nəzərə alınaraq, “ADEX 2026”ya giriş yalnız hərbi qulluqçular, təhlükəsizlik və hüquq-mühafizə orqanlarının əməkdaşları, hərbi və müdafiə sənayesində, eləcə də əlaqəli sektorlarda çalışan şəxslər, həmçinin ali hərbi təhsil müəssisələrinin tələbələri üçün açıq olacaq. Kommersiya strukturlarında çalışan şəxslər yalnız oktyabrın 2-də şəxsiyyət vəsiqələrini təqdim etməklə sərgini ziyarət edə biləcəklər.

Beləliklə, Azərbaycanın milli brendi “ADEX 2026” artan nüfuzu, ilk dəfə açılacaq 5-ci pavilyonu, genişlənən beynəlxalq coğrafiyası və dünyanın aparıcı müdafiə sənayesi şirkətlərinin iştirakı ilə öz tarixinin ən irimiqyaslı tədbirlərindən biri olmağa hazırlaşır. Bu mötəbər platforma Bakını növbəti dəfə beynəlxalq hərbi-texniki əməkdaşlığın əsas görüş məkanlarından birinə çevirəcək və Azərbaycanın milli brendi kimi qlobal nüfuzunu daha da möhkəmləndirəcək.

*Danışır foto*

# Bir fotoşəkil, bir ömürlük təbəssüm

Tarixdə elə fotoşəkillər var ki, onlar çəkilmə anından uzun illər keçsə də, daha da məşhurlaşır. Belə şəkillər yalnız obyektivə düşmüş bir kadr deyil, həm də müəyyən dövrün, bir insanın xarakterinin və ya cəmiyyətə verilən mesajın simvoluna çevrilir. Dünyanın ən məşhur fiziklərindən biri olan Albert Eynşteynin dil çıxardığı foto da məhz belə tarixi şəkillərdəndir. Bu gün həmin şəkil milyonlarla insan tərəfindən tanınır və Eynşteyn haqqında düşünüləndə ilk xatırlanan görüntülərdən biri hesab olunur.

Həmin foto 14 mart 1951-ci ildə Albert Eynşteynin 72-ci doğum günü münasibətilə keçirilən tədbirdən sonra çəkilib. ABŞ-nin Prinston şəhərində təşkil olunan tədbir başa çatdıqdan sonra alim avtomobilinə əyləşərək evinə qayıtmaq istəyirdi. Onu gözləyən çoxsaylı jurnalist və fotoqraflar isə son dəfə kameralarını ona yönəldərək gülümsəməsini xahiş ediblər.

Gün ərzində saysız-hesabsız şəkil çəkdirməkdən yorulan Eynşteyn növbəti dəfə gülümsəmək əvəzinə, zarafatla dilini çıxarır və həmin an fotoqraf Artur Sass kameranın düyməsini basaraq tarixə düşən məşhur kadrı ölümsüzləşdirir. Əslində, bu hərəkət əvvəlcədən düşünülmüş poza olmayıb. Cəmi bir neçə saniyə davam edən təbii reaksiyanın nəticəsi idi.

İlk vaxtlar bəzi insanlar bu fotonu ciddi qəbul etməyiblər. Hətta bəzi qəzetlər şəklin dərc edilməsini uyğun görməyib. Çünki həmin dövrdə dünyanın ən nüfuzlu alimlərdən birinin belə təqdim olunması qeyri-adi görüntü idi və ciddi qarşılanmaya bilərdi. Lakin Albert Eynşteyn fotosunu bəyənərək həmin şəkildən bir neçə nüsxə sifariş edib imzalayaraq dostlarına hədiyyə göndərib. Sonralar isə bu foto onun ən sevdiyi şəkillərdən birinə çevrilib.

Bu foto insanların Eynşteyn haqqında formalaşdırdığı təsəvvürü də dəyişməyi bacardı. O vaxta qədər insanlar onu yalnız ciddi, daim düşünən mürəkkəb nəzəriyyələr yaradan alim kimi tanıyıblar. Dil çıxardığı foto isə göstərdi ki, böyük zəka sahibi olmaq insanın yumor hissinə malik olmasına mane ola bilməz. Əksinə, sadəlik, səmimilik və təvazökarlıq insanı daha da sevdirən keyfiyyətlərdəndir.




Foto həm də stereotipləri sındırmağı bacardı. O vaxta qədər elm adamlarının yalnız ciddi və rəsmi görünməsi barədə düşüncələr geniş yayılmışdı. Albert isə bir anlıq zarafat ilə göstərdi ki, elm və həyat sevgisi, zəka və gülərüzlülük bir arada ola bilər.

Bu gün həmin foto dünyanın ən məşhur portretlərindən biridir. Kitabların üz qabığında, təqvimlərdə, plakatlarda və müxtəlif nəşrlərdə dəfələrlə sevilərək istifadə olunub. O, sadəcə bir alimin şəkli deyil, azad düşüncənin və insan səmimiyyətinin rəmzinə çevrilən qısa anın görüntüsüdür.

Tarixi fotoların ən böyük xüsusiyyəti ondadır ki, onlar uzun izahata ehtiyac duymadan hadisələri danışa bilirlər. Bir baxış və ya bir təbəssüm bəzən minlərlə sözün ifadə edə bilmədiyi hissləri çatdırmaq potensialına malikdir. Albert Eynşteynin dil çıxardığı foto da məhz belə kadrlardandır.

Cəmi bir neçə saniyədə çəkilmiş bu foto dünya fotoqrafiya tarixinin ən yaddaqalan nümunələrindən birinə çevrildi. Aradan onilliklər keçməyinə baxmayaraq, o, hələ də insanları düşündürür, üzlərində təbəssüm yaradır və böyük şəxsiyyətlərin də hər kəs kimi səmimi və təbii ola bildiyini göstərir.

**Hazırladı:**
**Hüsniyyə NƏSİROVA**
**"Azərbaycan Ordusu"**

*Hərbi hüquq*

## Hərbi qulluqçuların hüquqları və vəzifələri

**II bölmə**

**Maddə 24. Ümumi vəzifələr**

**1.** Hərbi qulluqçular Azərbaycan Respublikasının vətəndaşları üçün nəzərdə tutulmuş vəzifələrdən əlavə hərbi xidmətin xüsusiyyətləri ilə bağlı olan başqa vəzifələri də yerinə yetirirlər.

**2.** "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq hərbi qulluqçular aşağıdakıları etməyə borcludurlar:

- Azərbaycan Respublikasının mənafeyini, suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini qorumaq;
- Azərbaycan Respublikasına sadiq olmaq barəsində hərbi and içmək;
- Azərbaycan Respublikasının Konstitusiyasına və Azərbaycan Respublikasının başqa qanunlarına ciddi əməl etmək, komandirlərin və rəislərin əmrlərini qeyd-şərtsiz yerinə yetirmək;
- Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nizamnamələrində nəzərdə tutulan başqa vəzifələri yerinə yetirmək.

**3.** Hərbi qulluqçuların vəzifələri və bu vəzifələri yerinə yetirməsi qaydası Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nizamnamələri, habelə Azərbaycan Respublikası ali dövlət hakimiyyəti və idarəetmə orqanlarının qərarları əsasında qəbul olunmuş normativ aktlarla müəyyən edilir.

# Xəbərlər: hadisələr, faktlar



### Çində torpaq sürüşməsi nəticəsində itkin düşənlərin sayı 558-ə çatıb

Çinin Nepal ilə sərhədində yerləşən "Girong" sərhəd-keçid məntəqəsində baş verən torpaq sürüşməsi nəticəsində azı 558 nəfər itkin düşüb.

Bu barədə Çin Mərkəzi Televiziyası məlumat yayıb.

Məlumata görə, itkin düşənlər arasında 260 əcnəbi vətəndaş da var.

Çinin "Sinxua" agentliyinin məlumatına əsasən, torpaq sürüşməsi avqustun 26-da saat 10:30 radələrində sərhədin Nepal tərəfində baş verib. Hadisə nəticəsində üç nəfər həlak olub.

Hazırda itkin düşənlərin axtarışı və xilasetmə işləri davam etdirilir.

### Əlcəzairdə meşə yanğınları nəticəsində 12 nəfər ölüb



Əlcəzairdə genişmiqyaslı meşə yanğınları nəticəsində 12 nəfər ölüb, 50-dən çox insan xəsarət alıb.

Bu barədə Əlcəzairin daxili işlər, yerli özünüidarəetmə və nəqliyyat naziri Səid Sayud bildirib.

Nazir ölkənin şimalında yerləşən Becaya şəhərinə səfəri zamanı deyib ki, yanğınlar nəticəsində ölən və xəsarət alanların olduğu təsdiqlənib. Zərərçəkənlərə tibbi və digər zəruri yardım göstərilir.

Məlumata görə, avqustun 26-da Əlcəzair ərazisində 37 yanğın ocağı qeydə alınıb. Onlardan beşi ölkənin şimal-şərqində yerləşən Cijel vilayətində baş verib.

Yanğınlar səbəbindən bir neçə ailə təhlükəsiz ərazilərə təxliyə edilib. Hadisələrin baş verdiyi bölgələrdə yanğının söndürülməsi və əhalinin təhlükəsizliyinin təmin olunması istiqamətində tədbirlər davam etdirilir.

**AZƏRTAC-ın materialları əsasında**

# İdman

### "Sabah" Çempionlar Liqasının tarixinə düşüb




"Sabah" klubu UEFA Çempionlar Liqasında tarixi uğura imza atıb.

Azərbaycan təmsilçisi turnirin təsnifat mərhələsindən əsas raunda vəsiqə qazanan ən gənc komanda olub. 2017-ci ildə təsis edilən klub cəmi 9 ildən sonra Çempionlar Liqasının liqa mərhələsinə yüksəlib.

Daha əvvəl bu rekord Rusiyanın "Krasnodar" klubuna (12 il) məxsus olub.

Qeyd edək ki, "Sabah" Çempionlar Liqasının pley-off mərhələsində İsrailin "Hapoel" (Beer-Sheva) klubunu iki oyunun nəticəsinə əsasən 6:4 hesabı ilə məğlub edərək liqa mərhələsinə vəsiqə qazanıb. "Bayquşlar" "Qarabağ"dan sonra turnirin əsas mərhələsinə yüksələn ikinci Azərbaycan klubu olub.



### Çempionlar Liqası: "Fənərbağça" 18 il sonra əsas mərhələyə vəsiqə qazanıb

UEFA Çempionlar Liqasında pley-off mərhələsinin davam edən oyunları çərçivəsində Türkiyənin "Fənərbağça" klubu Fransada "Lion"la qarşılaşıb. Görüş İstanbul təmsilçisinin 2:1 hesablı qələbəsi ilə yekunlaşıb.

İki oyunun nəticəsinə əsasən rəqibini 3:2 hesabı ilə məğlub edən "Fənərbağça" adını Çempionlar Liqasının liqa mərhələsinə yazdırıb.

"Fənərbağça" son dəfə 2008-2009-cu illər mövsümündə turnirin qrup mərhələsində mübarizə aparmışdı.

### Azərbaycan boks millisi Avropa çempionatına Gürcüstanda hazırlaşacaq




Kişi boksçulardan ibarət Azərbaycan millisi Gürcüstanın Tsxaltubo şəhərində təlim-məşq toplanışı keçəcək.

Baş məşqçi Ravşan Xocayevin rəhbərlik etdiyi komanda hazırlığa bu gün 17 idmançı ilə yollanıb.

Boksçular sentyabrın 10-dək davam edəcək toplanışda Gürcüstan, Belarus və İsraillə birgə hazırlaşacaq, sınaq döyüşlərində güclərini yoxlayacaqlar.

Məşqlər Bolqarıstanda baş tutacaq Avropa çempionatına hazırlığın son mərhələsidir.

**AZƏRTAC-ın materialları əsasında**

Gizir Mamedov Damet Allahverdi oğluna verilmiş SQ № 0029001 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər İslamzadə Şaiq İman oğluna verilmiş AD № 00065322 nömrəli hərbi bilet itdiyi üçün etibarsız sayılır.

Cəfərli Rafiq Cüməli oğluna verilmiş MV № 170224 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Süleymanov Elman Elxan oğluna verilmiş MV № 129236 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Salahov Vurğun Əli oğluna verilmiş MV № 084460 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Əlirzayev Etimad Əli oğluna verilmiş MV № 5878 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Əlirzayev Elşad Əli oğluna verilmiş MV № 3065 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


| Redaktor | Telefon | Ünvanımız | Qəzetin hesabı | | Növbətçi | |
|---|---|---|---|---|---|---|
| mayor Ceyhun CƏFƏRLİ | Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatı üzrə növbətçisi: (012) 404-76-22 | Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | 2 saylı xəzinədarlıq Kod: 200189 VÖEN: 1500444791 | "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz. | kapitan Fuad CƏFƏROV | Lisenziya № 361 Sifariş № 722 Nüsxə 3653 |